

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

19 mart 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 11 (3774)


# Bakıdan dünyaya çağırış




## Sülh və təhlükəsizlik prioritetdir

**Prezident İlham Əliyev: “Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".**

Müasir beynəlxalq münasibətlər sistemi dərin ziddiyyətlər və artan qeyri-müəyyənlik fonunda formalaşır. Yaxın Şərqdə davam edən müharibələr, böyük güclər arasında rəqabətin sərtləşməsi, iqtisadi və siyasi bloklaşma meyilləri qlobal miqyasda etimad böhranını daha da dərinləşdirir.

Belə mürəkkəb şəraitdə Azərbaycanın evsahibliyi ilə keçirilən XIII Qlobal Bakı Forumu dünya üçün mühüm fikir və dialoq platforması kimi yadda qaldı. “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusu ətrafında təşkil olunan forum müxtəlif baxışların toqquşduğu bir mühitdə ortaq məxrəc axtarışına xidmət etdi.

Tədbir çərçivəsində müzakirə olunan mövzular qlobal gündəliyin əsas istiqamətlərini əhatə edirdi. Təhlükəsizlik, çoxtərəflilik, enerji, rəqəmsal inkişaf, nəqliyyat marşrutları və davamlı inkişaf məsələləri müasir dünyanın əsas çağırışları kimi ön plana çıxarıldı. Panel müzakirələrində beynəlxalq hüquqa hörmətin zəifləməsi, güc balansının dəyişməsi və texnoloji transformasiyanın yaratdığı yeni reallıqlar geniş şəkildə təhlil olundu.

Prezident İlham Əliyevin proqram xarakterli çıxışında isə müasir dünyada təhlükəsizlik və sabitlik məsələləri xüsusi yer tutdu. Dövlət başçısı vurğuladı ki, təhlükəsizlik olmadan inkişafdan və uzunmüddətli sabitlikdən danışmaq mümkün deyil. Son illər bir çox ölkənin ciddi geosiyasi risklərlə üzləşməsi göstərir ki, beynəlxalq təhlükəsizlik sisteminin möhkəmləndirilməsi hər bir dövlət üçün əsas prioritetlərdən biridir.

Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülhün regionda sabitliyin möhkəmlənməsi üçün yeni imkanlar açdığını qeyd edən dövlət başçısı bildirib ki, bu normallaşma güclü siyasi iradənin mövcudluğu sayəsində mümkün olub: “Bu, iki ölkənin qəbul etdiyi qərardır və artıq yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edirəm: sülhdən daha yaxşı heç nə yoxdur.”

Enerji təhlükəsizliyi məsələsi də forumun əsas müzakirə istiqamətlərindən biri oldu. Qlobal enerji bazarında baş verən dəyişikliklər fonunda Azərbaycanın etibarlı tərəfdaş kimi rolu xüsusi vurğulandı.

Nəqliyyat və logistika məsələləri də diqqət mərkəzində idi. Münaqişələrin ənənəvi marşrutlara təsiri alternativ yolların əhəmiyyətini artırır. Azərbaycan son illərdə həyata keçirdiyi iri infrastruktur layihələri ilə regionun mühüm tranzit mərkəzinə çevrilib.

Bu isə həm regional əməkdaşlığı genişləndirir, həm də qlobal tədarük zəncirlərinin dayanıqlığını gücləndirir.

# Daxili işlər orqanlarının şəxsi heyətinə



**Hörmətli həmkarlar!**

**Novruz bayramı münasibətilə Sizi, hörmətli veteranlarımızı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası uğrunda döyüşlərdə və xidməti vəzifələri yerinə yetirərkən şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçularımızın ailə üzvlərini ürəkdən təbrik edir, ən xoş diləklərimi çatdırıram.**

**Xalqımızın minilliklər ərzində formalaşmış zəngin mədəni irsini, milli-mənəvi dəyərlərini, birlik və həmrəylik ruhunu özündə yaşadan, təbiətin oyanışının, yeni həyatın başlanğıcının simvolu olan, insanlara sevinc və sabaha inam bəxş edən Novruz bayramı yurdumuzun hər bir guşəsində yüksək ovqatla qeyd olunur. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin nəticəsi olaraq ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunduğu, işğaldan azad edilmiş şəhər və rayonlarımızda genişmiqyaslı quruculuq işlərinin, doğma torpaqlara Böyük Qayıdış prosesinin uğurla davam etdiyi bir şəraitdə keçirilir.**

**Bayram və qələbə əhval-ruhiyyəli əməkdaşlarımız və hərbi qulluqçularımız da hər zaman olduğu kimi vətəndaşlarımızın dinc həyatının, hüquq və azadlıqlarının keşiyində əzmlə dayanır, ölkəmizin sabit inkişafına, təhlükəsizliyinə öz töhfələrini verirlər.**

**Qanunla müəyyən edilmiş mühüm vəzifələri bundan sonra da peşəkarlıqla yerinə yetirəcəyinizə əminliyimi ifadə edir və hamınıza möhkəm can sağlığı, ailə səadəti, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.**

**Bayramınız mübarək!**

**Vilayət Eyvazov**
***Azərbaycan Respublikasının daxili işlər naziri***
***general-polkovnik***

## Prezident Kanslerlə danışıb

### Yaxın Şərqdəki gərginlik müzakirə edilib

Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts arasında telefon danışığı olub.

Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayan Fridrix Merts bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib.

## İkitərəfli əlaqələr güclənir

### Əməkdaşlıq perspektivi genişdir

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşündə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Görüşdə, həmçinin XIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edilib. Forumda həmişə olduğu kimi bu dəfə də, xüsusilə dünyada hazırkı vəziyyət fonunda çox aktual qlobal məsələlərin müzakirə edildiyi vurğulanıb.

## Azərbaycan qaz təchizatında liderdir

### Prezident mətbuata vacib bəyanatlar verib

“Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə biz dünyada boru kəməri ilə qazı təchiz edən bir nömrəli ölkəyik”. Bu sözləri martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxışlarında deyib.

Prezident Ermənistana neft məhsullarının təchizatına da toxunaraq bunun güclü siyasi iradə göstəricisi olduğunu xüsusilə vurğulayıb.

## Prezident Sərəncam imzalayıb

### Memarlıq abidəsi qorunacaq

Azərbaycan Prezidenti Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi ilə bağlı yeni sərəncam imzalayıb. Sərəncama uyğun olaraq 2026-cı il dövlət büdcəsində Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9 milyon 566 min manat vəsait ayrılıb. Ayrılan maliyyə vəsaiti türbədə aparılan kompleks bərpa və qoruma işlərinin davamlılığını təmin etməyə yönəlib.


Sədaqətli xidmət nümunəsi..................2

Novruzun keşiyində............................2

Gənclər sırasından seçim edilib........3

Minilliklərdən gələn Novruz................4

# Respublika Xəbərləri

### Karantin rejimi uzadılıb

Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. Nazirlər Kabinetinin qərarına əsasən, rejim koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə 2026-cı il iyulun 1-i saat 06:00-dək qüvvədə olacaq.

### Cərimənin qaytarılmasında yenilik

Nazirlər Kabinetinin yeni qərarı ilə artıq düzgün tətbiq edilməmiş və ya səhv ödənilmiş inzibati cərimələrin (dəbbə pulu daxil olmaqla) geri qaytarılması qaydaları müəyyən edilib. Qaydalara görə, cərimə məbləği qərarda nəzərdə tutulandan artıq ödənildikdə, məhkəmə və ya şikayət əsasında qərar ləğv edildikdə, yaxud ödəniş rekvizitləri səhv göstərildikdə vəsait tam və ya qismən geri qaytarılacaq.

### Hərbi çağırış qaydaları sərtləşdirilir

Azərbaycanda hərbi xidmətdən boyun qaçıranlara qarşı qaydalar sərtləşdirilir. Qanunvericiliyə edilən dəyişikliklərə əsasən, çağırışdan üzrlü səbəb olmadan yayınan şəxslər məsuliyyətə cəlb olunacaq. Həmçinin belə şəxslərin ölkədən çıxışına müvəqqəti məhdudiyyət tətbiq oluna biləcək.

### Bayramda yol polisi iş başında olacaq

Baş Dövlət Yol Polisi İdarəsi bayram günlərində vətəndaşların vaxt itirməməsi üçün xüsusi iş rejiminə keçib. Paytaxtın Sabunçu və Qaradağ rayonlarındakı texniki müayinə mərkəzləri, eləcə də bölgələrdəki qeydiyyat-imtahan şöbələri hər gün saat 09:00-dan 18:00-dək fasiləsiz fəaliyyət göstərəcək.

### Xankəndidə Novruz yarmarkası keçirilir

Xankəndi şəhərində “Kənddən Şəhərə” Novruz yarmarkası təşkil olunub. Yarmarkanın məqsədi fermerlərin məhsullarının satışını dəstəkləmək və sakinləri yerli kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Tədbirdə müxtəlif çeşiddə 40 növ məhsul satışa çıxarılıb və yarmarka martın 17-dək davam edəcək.

### Qarabağa növbəti köç həyata keçirilib

Xocavənd rayonunun Xanoba kəndinə köçən 25 ailəyə (114 nəfər) evlərinin açarları təqdim olunub. Eyni zamanda Ağdərə, Xocavənd və Cəbrayıl rayonlarının bir neçə kəndinə növbəti köç karvanları yola salınıb. Ümumilikdə müxtəlif bölgələrdən 368 nəfər mərhələli şəkildə doğma yurdlarına qayıdıb.

### Qarabağın ekoloji infrastrukturu qurulur

İşğaldan azad olunmuş ərazilərdə tullantıların idarə edilməsi üçün yeni infrastruktur yaradılacaq. Bununla yanaşı, elektrik stansiyalarının tikintisi və bərpası, milli parkların salınması, poliqonların qurulması və meşə sahələrinin genişləndirilməsi nəzərdə tutulur. Layihələr ətraf mühitin qorunması və regionun davamlı inkişafına xidmət edəcək.

### Mina təmizliyi

Azad olunmuş ərazilərdə ötən həftə 1 234 hektardan çox ərazi minalardan təmizlənib. ANAMA-nın məlumatına görə, əməliyyatlar zamanı yüzlərlə mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Təmizləmə işləri bir neçə rayonda aidiyyəti qurumlar tərəfindən davam etdirilir.

### Qarabağdakı yaşayış məntəqələri...

İşğaldan azad edilmiş torpaqlarda bu günədək 41 yaşayış məntəqəsi tikilərək və bərpa edilərək istifadəyə verilib. Hazırda bu ərazilərdə ümumilikdə 80 mindən çox insan yaşayır və fəaliyyət göstərir. Qarşıdakı dövrdə "Böyük Qayıdış" proqramı çərçivəsində köç prosesinin daha da sürətləndirilməsi nəzərdə tutulur.

### Əcnəbilərin qeydiyyatı asanlaşıb

Ötən ay 10 374 əcnəbi Azərbaycanda qeydiyyata düşmək üçün müraciət edib. Dövlət Miqrasiya Xidmətinin məlumatına görə, bu müraciətlərin böyük hissəsi -7 379-u elektron qaydada həyata keçirilib.

### Sosial mənzillər satışdadır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı, Abşeron və Samuxda kvadratmetri bazar qiymətindən xeyli aşağı - 435-830 manat intervalında olan yeni mənzillərin satışına başlayıb. Paytaxtın Ümid, Kürdəxanı, Ramanı qəsəbələri və Abşeron rayonunda yerləşən, tam təmirli və çıxarışlı 3-4 otaqlı bu mənzillər ipoteka krediti üçün tam yararlıdır.

# Sədaqətli xidmət nümunəsi

## Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tarixi parlaq hadisələrlə zəngindir

**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 34-cü ildönümü qeyd edilib. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və hərbi qulluqçular Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**





Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu, xalqa və dövlətə sədaqətlə xidmət edən Qoşunların hərbi qulluqçularının qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini vurğulayıb.







Nazir dövlət başçısının ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların maddi-texniki, hərbi tədris bazasının və institutunun, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, hərbi hissələrin müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün tədbirlər həyata keçirildiyini bildirib. O, DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini məmnunluqla qeyd edib.

Bildirilib ki, ölkədə ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, cinayətkarlığa qarşı mübarizədə, eləcə də keçirilən mötəbər beynəlxalq tədbirlər zamanı qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Nazir xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində dövlət mükafatlarına layiq görülməsinin möhtərəm Prezidentin qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadının əyani ifadəsi olduğunu diqqətə çatdırıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov və komandanın birinci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış ediblər.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.

# Novruzun keşiyində

## Bayram sevincinin arxasında dayanan xidmət

Bayram günlərində küçələrdə və ictimai məkanlarda müşahidə olunan hərəkətlilik bir tərəfdən insanların bayram ovqatını əks etdirirsə, digər tərəfdən bu əhval-ruhiyyənin təhlükəsizliyini təmin edənlərin gərgin iş rejiminə keçdiyini göstərir.

Xüsusilə Novruz kimi ümumxalq bayramı günlərində ictimai təhlükəsizliyin qorunması daha həssas və diqqət tələb edən vəzifə kimi qarşımızda durur. İnsanların rahat hərəkət etməsi, kütləvi tədbirlərin təhlükəsiz mühitdə keçirilməsi və evlərdə bayramın əmin-amanlıq şəraitində yaşanması üçün polis əməkdaşlarının əməyi bu günlərdə birə-beş artır.

Novruz hər bir ailə üçün doğmalıq, birlik və sevinc bayramıdır. Tonqal ətrafına, süfrə başına toplaşan insanların keşiyində polis əməkdaşları dayanır, bu günlərin təhlükəsizliyini təmin etmək üçün gecəsini gündüzünə qatır.

Əlbəttə, sabitliyin qorunması hər zaman fədakarlıq tələb edib. Bəzən həyati risklərlə üz-üzə qalmaq, bəzən isə məhz bayram günlərində ailədən uzaqda olmaq, küçələrdə və magistral yollarda gücləndirilmiş rejimdə xidmət aparmaq bu fədakarlığın ayrılmaz hissəsidir. Küçələrdə, meydanlarda və yollarda aparılan bu xidmətin amalı isə aydındır: ölkədə sabitliyin qorunması və vətəndaşların bayramlarını doğmaları ilə birlikdə təhlükəsiz və rahat şəkildə qeyd etməsi.

Bayram günlərində ölkənin müxtəlif



bölgələrinə nəqliyyat axınının artması xüsusən yol polisinin məsuliyyətini daha da artırır. Böyük şəhərlərdə, rayon mərkəzlərində, turizm bölgələrində və magistral yollarda gücləndirilmiş nəzarət tədbirləri həyata keçirilir. Geniş coğrafiyanı əhatə edən bu xidmət yüksək koordinasiya və peşəkarlıq tələb edir.

Etiraf etmək lazımdır ki, ölkədə ictimai asayişin qorunması və sabitliyin





təmin olunması uzun illər ərzində formalaşmış möhkəm təməllər üzərində qurulub. Bu sabitlik polisin peşəkar fəaliyyəti, dövlətin təhlükəsizlik siyasəti və cəmiyyətin qanunlara hörmətinin nəticəsidir.

Bir vaxtlar riskli sayılan bölgələrin bu gün sabit və təhlükəsiz məkana çevrilməsi bu xidmətin miqyasını daha aydın göstərir. Uzun illər işğal altında qalmış Şərqi Zəngəzur və Qarabağ bölgələrinin ölkənin ümumi təhlükəsizlik sisteminə inteqrasiyası mühüm mərhələdir. Bu gün Xankəndidə, Şuşada, Laçında və Xocalıda qalanan novruz tonqalları bərpa olunan həyatın və



möhkəmlənən təhlükəsizliyin rəmzidir. Həmin tonqalların ətrafında toplaşan insanlar dövlətinə, hərbçisinə və polisinə güvənərək bayramlarını qeyd edirlər.

Bu güvənin və sabitliyin arxasında isə diqqətlə planlaşdırılmış xidmət, operativ nəzarət və fədakar əmək dayanır.

Sonda bir daha vurğulamaq yerinə düşür ki, vətəndaşlarımız bayram tonqalı və süfrəsi ətrafında sevincini paylaşarkən küçələrdə xidmət aparan polis əməkdaşları həmin sevincin keşiyini çəkir. Bu səbəbdən sabitliyin qorunmasını yalnız təhlükəsizlik məsələsi kimi qiymətləndirmək düzgün olmaz. Bu, cəmiyyətin rifahını, insanların rahat həyatını və dövlətin dayanıqlı inkişafını təmin edən missiyadır.

*R.Mehtiyev*

# Gənclər sırasından seçim edilib

## Seçim turunun növbəti mərhələsinə 129 nəfər buraxılıb





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 16-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Zorakılığa biganə qalmayın!

## “Ailədir, olar”, “Döz, düzələr”, “El nə deyər?”…

Ailə cəmiyyətin əsas dayaqlarından biri hesab olunur. Lakin bəzi hallarda məhz ailə mühiti zorakılıq hadisələrinin baş verdiyi məkanlardan birinə çevrilir. Qadınlara və uşaqlara qarşı törədilən ailə-məişət xarakterli zorakılıq yalnız fərdi faciə deyil, həm də cəmiyyətin sosial və mənəvi sağlamlığına ciddi təsir göstərən problemdir. Bu səbəbdən belə halların qarşısının alınması hər bir dövlətin təməl məqsədlərindən biri kimi həlli vacib məsələlər sırasında yer alır.

Ailə-məişət zəminində baş verən zorakılıq müxtəlif formalarda özünü göstərə bilər. Bu hallara fiziki zorakılıqla yanaşı, psixoloji təzyiq, təhqir və digər zorakı davranış formaları da daxildir. Xüsusilə uşaqlar üçün belə mühitdə böyümək onların gələcək həyatına mənfi təsir edə bilər. Zorakılıq mühitində böyüyən uşaqların psixoloji travma yaşaması, aqressiv davranışlara meyil göstərməsi və sosial münasibətlərdə çətinliklərlə qarşılaşması daha yüksək olur. Bu baxımdan ailə daxilində baş verən zorakılıq yalnız bir ailənin deyil, bütövlükdə cəmiyyətin problemidir.

### Hüquqi mexanizmlər müdafiəni təmin edir

Azərbaycanda qadınlara və uşaqlara qarşı zorakılığın qarşısının alınması məqsədilə müvafiq hüquqi baza formalaşdırılıb. Bu sahədə qəbul olunmuş qanunvericilik aktları zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsini və zorakılıq hallarının qarşısının alınmasını nəzərdə tutur.

Bu istiqamətdə Daxili İşlər Nazirliyinin qadınlara və uşaqlara qarşı törədilmiş ailə-məişət xarakterli zorakılıq əməllərinin qarşısının alınması sahəsində aidiyyəti dövlət qurumları ilə birgə həyata keçirdikləri profilaktik tədbirlər xüsusi əhəmiyyət daşıyır. Polis orqanları daxil olan müraciətləri araşdırır, zəruri hallarda müdaxilə edir və qanunvericiliyə uyğun tədbirlər görür. Eyni zamanda profilaktik tədbirlər, maarifləndirmə layihələri və ictimai məlumatlandırma kampaniyaları da həyata keçirilir. Diqqət çəkən digər məqam bu məsələdə vətəndaşların polis orqanlarına artan etimadıdır. Hər bir müraciət polis əməkdaşları tərəfindən operativ şəkildə araşdırılır və qanunvericiliyə uyğun hüquqi tədbirlər görülür. Zərərçəkmiş şəxslərin müdafiəsi və onların təhlükəsiz mühitə yönləndirilməsi istiqamətində də digər dövlət qurumları ilə birgə fəaliyyət həyata keçirilir, psixoloji və sosial dəstək mexanizmləri tətbiq olunur. Bu sahədə polis orqanları yalnız hadisə baş verdikdən sonra deyil, həm də preventiv tədbirlərlə zorakılığın qarşısının alınmasına çalışır. “E-Polis” mobil tətbiqində yerləşdirilmiş “102 SOS” funksiyası vətəndaşlara təhlükə zamanı operativ şəkildə polisə müraciət etmək imkanı yaradır.

### Polislə həmrəylik vacib şərtdir

Qadınlara və uşaqlara qarşı ailə-məişət xarakterli zorakılıq cəmiyyət üçün ciddi sosial problemdir. Bu problemin həlli hüquqi tədbirlərlə yanaşı sosial məsuliyyət və ictimai həmrəyliklə mümkündür. Polisin bu sahədə fəaliyyəti, profilaktik tədbirlər və cəmiyyətin artan həssaslığı göstərir ki, zorakılığa qarşı mübarizə sistemli şəkildə davam etdirilir. Hər bir vətəndaşın bu məsələyə biganə qalmaması və belə hallarla qarşılaşdıqda aidiyyəti qurumlara məlumat verməsi isə təhlükəsiz və sağlam cəmiyyətin formalaşmasında mühüm rol oynayır.

*F.Məmmədova*

# Velosipedçilər üçün...

## Yeni svetoforlar quraşdırılıb

“Nizami” metro stansiyasının qarşısında velosipedçilərin təhlükəsizliyi təmin edilib. Paytaxtın Yasamal rayonunda daha 4 kəsişmədəki svetoforlara velosiped bölmələri quraşdırılıb. Mikromobilliyin inkişafı istiqamətində görülən işlər çərçivəsində Cəfər Cabbarlı küçəsinin Bəsti Bağırova, Əli bəy Hüseynzadə və Salatın Əsgərova küçələri ilə kəsişmələrində, həmçinin Şıxəli Qurbanov küçəsi ilə Şamil Əzizbəyov küçəsinin kəsişməsindəki mövcud svetoforlarla 8 ədəd velosiped bölməsi quraşdırılaraq istifadəyə verilib. LED işıqlandırma ilə təchiz olunan yeni nəsil bölmələr velosipedçilərin və kiçik elektrik nəqliyyat vasitələrini idarə edənlərin yollarda daha təhlükəsiz hərəkət etməsinə imkan yaradır.

# Rəqəmsal dövrdə istehlakçı təhlükəsizliyi

## Polis yeni təhdidlərə qarşı

**İstehlakçı hüquqlarından bəhs edərkən keyfiyyətsiz qida və məhsul məsələləri ilk baxışda polisin rolunu ön plana çıxarmaya bilər. Əslində isə Cinayət Məcəlləsində istehlakçıların aldadılmasına, keyfiyyətsiz məhsulların istehsalına və satışına görə cinayət məsuliyyəti nəzərdə tutulur və həmin cinayətlər üzrə ibtidai istintaq aparmaq səlahiyyəti həm də polisə həvalə edilib.**

Yəni istehlakçıların hüquqlarının qorunması yalnız inzibati və ya iqtisadi nəzarət mexanizmləri ilə deyil, eyni zamanda cinayət-hüquqi tədbirlər vasitəsilə də təmin olunur.

Üstəlik, getdikcə yayılmaqda olan onlayn alış-veriş mühitində istehlakçıların təhlükəsizliyinin təmin olunması da xüsusi əhəmiyyət kəsb edir. Çünki son illərdə internet istifadəçilərinin sayının sürətlə artması virtual məkanda törədilən cinayətlərin dinamikasına da birbaşa təsir göstərir. Ötən il ölkə üzrə informasiya texnologiyalarından istifadə edilməklə törədilmiş 1.709 cinayət faktının əhəmiyyətli hissəsini onlayn oğurluq və dələduzluq halları təşkil edib.

### Kiberpolis riskləri önləyir, istehlakçıları qoruyur

Doğrudur, kiberdələduzluq fəaliyyəti ilə məşğul olan cinayətkar qruplar adətən transmilli xarakter daşıyır və bu xüsusiyyət istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini çətinləşdirir.

Bununla belə, kibercinayətkarlıqla mübarizə sahəsində kiberpolis tərəfindən həyata keçirilən əməliyyat-texniki tədbirlər ciddi nəticələr verməkdədir. Xüsusi əməliyyatlar çərçivəsində qanunsuz onlayn platformaların ifşası, zərərli şəbəkələrin zərərsizləşdirilməsi, elektron izlərin aşkarlanması və şübhəli şəxslərin müəyyən edilməsi istiqamətində sistemli iş aparılır. Paralel olaraq xarici ölkələrin hüquq-mühafizə orqanları ilə transmilli cinayət şəbəkələrinin ifşası istiqamətində birgə tədbirlər görülür.

### Maarifləndirmə geniş vüsət alıb

Bu kontekstdə istehlakçıların maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, bir çox hallarda istehlakçı hüquqlarını pozan kibercinayətlərin baş verməsinin əsas səbəblərindən biri vətəndaşların rəqəmsal təhlükələr barədə kifayət qədər məlumatlı olmamasıdır. Bu səbəbdən polis tərəfindən təhlükəsiz internet istifadəsi, şəxsi və bank məlumatlarının qorunması ilə bağlı geniş maarifləndirmə tədbirləri həyata keçirilir. Müxtəlif maarifləndirici materiallar hazırlanır, ictimaiyyətə təqdim olunur və vətəndaşlara real risklər barədə məlumat verilir.

Keçirilən bu profilaktik və maarifləndirici tədbirlər öz müsbət nəticəsini göstərməkdədir. 2025-ci ildə informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin sayında azalma tendensiyası müşahidə olunub.

Bu isə bir daha sübut edir ki, kibertəhlükəsizlik sahəsində görülən işlər həm cinayətkarlıqla mübarizəyə, həm də istehlakçı hüquqlarının qorunmasına birbaşa töhfə verir.

*L.Babayeva*

# İki qurumdan birgə müraciət

## Yanğın təhlükəsizliyinə əməl edin!

Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyinə dair birgə müraciət yayıb. Vətəndaşların diqqətinə çatdırılıb ki, Novruz bayramı ərəfəsində, xüsusən çərşənbə axşamlarında tonqalların qalanması əsrlərdir xalqımızın tarixi köklərə əsaslanan adət-ənənələrindəndir. Amma bu bayram ritualını yerinə yetirən zaman yanğınların başvermə riskinin olduğunu da unutmamalıyıq. Xüsusilə binaların həyətlərində, avtomobillərin yaxınlığında, eləcə də meşə və yaşıllıq ərazilərdə tonqalların qalanması ciddi təhlükə yarada bilər.

Tonqal qalanması zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl olunmaması arzuolunmaz və acı nəticələrə yol aça bilər. Vətəndaşların diqqətinə çatdırırıq ki, bayram tonqalı tikili, avtomobil, elektrik naqili, ağac və digər yanar əşyalardan ən azı 50 metr kənarda yandırılmalı, tonqalın ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalı, tonqal üzərindən atılarkən ehtiyatlı olmalı, tonqal tam sönənədək nəzarətdə saxlanılmalı, süfrələrdə yandırılan şamlar nəzarətsiz qalmamalıdır.

Təəssüf ki, hər il Novruz şənlikləri zamanı ehtiyatsızlıq səbəbindən yanğın, xəsarətalma və əmlaka ziyan dəyməsi halları qeydə alınır. Unutmayaq ki, bir anlıq səhlənkarlıq ağır nəticələrə səbəb ola bilər. Bayram sevincimizi faciəyə çevirməmək üçün hər kəsi yanğın təhlükəsizliyi qaydalarına və ətraf mühiti qorumağı vətəndaşlıq borcumuz bilib sadalanan nüanslara ciddi əməl etməyə çağırırıq. Gəlin Novruzu birlikdə təhlükəsiz və məsuliyyətli şəkildə qeyd edək.

# Kiberpolis uğurlu əməliyyat keçirib

## Qanunsuz kazino təşkilatçıları tutulub




Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi (KMBİ) sosial şəbəkələrdə qanunsuz onlayn qumar və kazino oyunları təşkil edən şəxslərə qarşı əməliyyat-texniki tədbirləri davam etdirir.

Kiberpolisin keçirdiyi növbəti əməliyyat zamanı qeyd olunan cinayət əməllərində təqsirli bilinən daha 4 nəfər - Polad Abdullayev, Sənan Hacızadə, Toğrul Kazımov və sonuncu ilə əlbir olaraq fəaliyyət göstərən Cəfər Bəyəliyev saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər xaricdən idarə olunan qanunsuz qumar saytları ilə cinayət əlaqəsinə girərək ölkə ərazisində virtual kassalar yaradıblar. Daha sonra sosial şəbəkələrdə açdıqları “Milan”, “Sevinc”, “Rahat” və “Texas 777” adlı səhifələr vasitəsilə istifadəçilərlə əlaqə saxlayaraq onları qanunsuz onlayn kazino oyunlarına cəlb ediblər. Saxlanılan şəxslərin yaşadıqları ünvanlara baxış zamanı elektron sübutlar, qanunsuz kazino oyunlarında istifadə olunan bank kartları və mobil nömrələr aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Baş İdarədə cinayət işi başlanıb. P.Abdullayev, S.Hacızadə, T.Kazımov və C.Bəyəliyev cinayət məsuliyyətinə cəlb olunaraq məhkəmənin qərarı ilə həmin şəxslər barəsində həbs qətimkan tədbiri seçilib.

Polis bir daha xəbərdarlıq edir ki, qanunsuz onlayn kazino və qumar oyunlarında iştirak həm maliyyə itkisi, həm də hüquqi məsuliyyət riski yaradır. Odur ki, vətəndaşların lisenziyasız onlayn kazino və mərc saytlarına daxil olmamaq tövsiyə olunur.

# “Antik” oğru

## Keçmiş məhkum köhnə vərdişindən əl çəkməyib

Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən mənzillərdən oğurluq edən şəxslərə qarşı əməliyyatlar keçirilib. Tədbirlərlə 2 fərdi yaşayış evindən ümumi dəyəri 7750 manat olan müxtəlif növ məişət əşyaları və 1000 manat oğurlamaqda şübhəli bilinən, əvvəllər də məhkum olunmuş X. Kazımzadə saxlanılıb.Polis əməkdaşlarının keçirdikləri digər tədbirlər nəticəsində şəhər ərazisində avtomobillərdən, eləcə də obyektlərdən mobil telefon və pul oğurlayan keçmiş məhkum N.Əliyev də saxlanılıb. Araşdırmalarla N. Əliyevin ümumilikdə 15-ə yaxın mağaza və avtomobildən oğurluq etdiyi müəyyən olunub. Həmçinin saxlanılan şəxsdən psixotrop maddə olan metamfetamin də aşkarlanıb. Keçirilən növbəti tədbir zamanı evlərin birindən ümumi dəyəri 3000 manat olan müxtəlif növ məişət əşyalarını oğurlamaqda şübhəli bilinən A.Məmmədov da saxlanılaraq istintaqa təhvil verilib.

Faktlarla bağlı cinayət işləri başlanıb, məhkəmənin qərarı ilə saxlanılan şəxslərin hər biri barəsində həbs qətimkan tədbiri seçilib.

# Minilliklərdən gələn Novruz

## Xalqımız əsrlər boyu bu milli dəyəri qoruyub yaşadır

**Baharın gəlişini, təbiətin oyanışını və insanların yenilənməsini simvolizə edən Novruz Azərbaycan xalqının ən qədim və zəngin milli-mənəvi dəyərlərindən biridir.**

Novruz bayramı dünyanın ən qədim bayramlarından hesab olunur. Tarixçilərin fikrincə, bu bayramın yaşı minilliklərlə ölçülür və onun yaranması qədim Şərq sivilizasiyalarına gedib çıxır. “Novruz” sözü fars dilindən tərcümədə “yeni gün” mənasını verir və yeni ilin, yeni həyatın başlanğıcını ifadə edir.

Tarixi mənbələrə görə, Novruz mərasimləri qədim Babil, Midiya və digər Şərq dövlətlərində də qeyd olunub. Sonralar bu bayram müxtəlif xalqların mədəniyyətində yaşamağa davam edib və Azərbaycan xalqının da ən əziz bayramlarından birinə çevrilib.



### Sovet dövründə Novruza qadağa

XX əsrin 20-ci illərindən etibarən Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olduqdan sonra milli adət-ənənələrə münasibət dəyişdi. Sovet ideologiyası dini və milli ənənələrin geniş şəkildə qeyd edilməsini arzuolunmaz hesab edirdi. Bu səbəbdən Novruz bayramına da rəsmi səviyyədə mənfi münasibət göstərilirdi.

1930-cu illərdən başlayaraq Novruz bayramının kütləvi şəkildə keçirilməsi qadağan edildi. O dövrdə bayram “köhnəlik qalığı”, “dini mərasim” kimi təqdim olunurdu. Dövlət səviyyəsində bayram tədbirləri təşkil edilmir, məktəblərdə və müəssisələrdə bu günə xüsusi əhəmiyyət verilmirdi.

Lakin bütün qadağalara baxmayaraq, xalq Novruzu unutmadı. İnsanlar bayramı əsasən ailə içərisində, gizli şəkildə qeyd edirdilər. Evdə səməni qoyulur, yumurta boyanır, şirniyyatlar bişirilir, uşaqlar papaq atırdı. Tonqal qalamaq isə çox vaxt açıq şəkildə mümkün olmadığından bəzi ailələr bunu həyətlərdə və ya kənd yerlərində gizli şəkildə həyata keçirirdi. Beləliklə, Novruz bayramı rəsmi qadağalara baxmayaraq xalqın yaddaşında və gündəlik həyatında yaşamaqda davam etdi.

### Novruzun yenidən dirçəldilməsi

1960-cı illərin ikinci yarısında Azərbaycanda milli-mədəni dəyərlərə maraq yenidən artmağa başladı. Bu dövrdə Novruz bayramının açıq şəkildə qeyd olunması məsələsi də gündəmə gəldi.

1967-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Şıxəli Qurbanov Novruz bayramının rəsmi şəkildə qeyd olunması təşəbbüsü ilə çıxış etdi. Onun təşəbbüsü və təşkilatçılığı ilə uzun illərdən sonra Bakıda Novruz şənlikləri keçirildi. Həmin il paytaxtın küçə və meydanlarında xalq şənlikləri təşkil olundu, milli musiqilər səsləndirildi, qədim adətlər nümayiş etdirildi. Bu tədbirlər xalq tərəfindən böyük sevinc və maraqla qarşılandı. Uzun illər gizli şəkildə qeyd olunan bayram ilk dəfə geniş şəkildə ictimai məkanlarda keçirildi.



Novruzun belə böyük miqyasda qeyd olunması o dövr üçün əhəmiyyətli hadisə sayılırdı. Bu təşəbbüs milli ənənələrin qorunması və dirçəldilməsi baxımından mühüm addım oldu. Həmin dövrdən sonra Novruz mərasimləri tədricən yenidən ictimai həyatın bir hissəsinə çevrilməyə başladı və xalqın milli kimliyinin ifadəsi kimi daha açıq şəkildə qeyd olunurdu.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Novruz bayramı rəsmi dövlət bayramı kimi təsdiq edildi. Bu gündən etibarən bayram ölkə miqyasında geniş şəkildə qeyd olunur və hər il dövlət səviyyəsində müxtəlif tədbirlər keçirilir. Bu gün Novruz Azərbaycan xalqının milli birlik və həmrəyliyini ifadə edən ən əziz bayramlardan biri hesab olunur.

### Müstəqillik dövründə milli bayram

Novruz bayramı zəngin adət-ənənələrlə müşayiət olunur. Bayramdan əvvəl dörd çərşənbə - Su, Od, Yel və Torpaq çərşənbələri qeyd edilir. Bu çərşənbələr təbiətin oyanmasının mərhələlərini simvolizə edir. Bayram gecəsi tonqal qalamaq ən qədim adətlərdən biridir. İnsanlar tonqalın üzərindən tullanaraq “ağırlığım-uğurluğum odda qalsın” deyirlər. Bu mərasim insanın mənəvi təmizlənməsini və yeni həyata başlanmasını simvolizə edir.

Novruz süfrəsinin də özünəməxsus ənənələri var. Süfrəyə səməni, boyanmış yumurta, paxlava, şəkərbura, qoğal və digər milli şirniyyatlar düzülür. Səməni isə bolluq və bərəkətin rəmzi sayılır.

### Milli-mənəvi dəyərlərimizin simvolu

Əsrlər boyu xalqımızın yaddaşında qorunub saxlanılan Novruz bayramı bu gün də milli-mənəvi dəyərlərimizin mühüm rəmzi kimi yaşayır. Bu bayram insanları birliyə, xeyirxahlığa və yeniliyə səsləyir. Novruz təkcə baharın gəlişini deyil, həm də Azərbaycan xalqının qədim tarixini, zəngin mədəniyyətini və milli kimliyini ifadə edən mühüm bayramdır.

*Aytən Tahirova*

# Ən güclülərimiz

## DİN əməkdaşları arasında güc çoxnövçülüyü üzrə yarış keçirilib




Martın 17–18 tarixlərində daxili işlər orqanlarının əməkdaşları arasında güc çoxnövçülüyü üzrə çempionat baş tutub. Yarışda 12 komanda və ümumilikdə 70 polis əməkdaşı iştirak edib.

Turnirdə Naxçıvan DİN komandası yüksək nəticə göstərərək ümumi komanda hesabında birinci yeri tutub. İkinci pillədə DİN-in Əlahiddə Çevik Polis Alayı, üçüncü yerdə isə DİN Daxili Qoşunların Baş İdarəsi qərarlaşıb.

Ağırlıq qaldırma yarışlarında 70 kq çəki dərəcəsində Naxçıvan MR DİN-nin əməkdaşı Qənbər Qasımov qalib olub, onun komanda yoldaşları Taleh Yaqubov 78 kq-da, Asəf Hüseynli 86 kq-da birinci yeri tutub. 95 kq çəki dərəcəsində Nəqliyyatda Baş Polis İdarəsinin əməkdaşı Cavid Musayev qalib gəlib. +95 kq-da isə Əlahiddə Çevik Polis Alayının əməkdaşı Rauf Vəliyev ən güclü idmançı olub.

Qol güləşi yarışları da gərgin mübarizə ilə yadda qalıb. 70 kq-da Daxili Qoşunların Baş İdarəsinin əməkdaşı Araz Məmmədov birinci yerə layiq görülüb. 78 kq çəki dərəcəsində Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin kursantı Elmir Gülmətov, 86 kq-da isə Əlahiddə Çevik Polis Alayının əməkdaşı Ayaz İsmayılov bütün rəqiblərini geridə qoyub. 95 kq-da Polis Akademiyasının kursantı Adil Verdili birinci olub. +95 kq çəki dərəcəsində isə Gəncə ŞBPİ-nin əməkdaşı Əli Əliyev qalib adını qazanıb.

Yarışın nəticələrinə görə qaliblər medal və diplomlarla təltif olunub.

# Telefon dələduzlarından necə qorunmalı?

## Şəxsi məlumatlarınızı qoruyun və diqqətli davranın

Son illər mobil telefonlar vasitəsilə törədilən dələduzluq hallarına dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da rast gəlinir. Dələduzlar müxtəlif üsullardan istifadə edərək vətəndaşların etibarını qazanmağa çalışırlar. Onlar özlərini bank əməkdaşı, mobil operator nümayəndəsi və ya rəsmi qurum işçisi kimi təqdim edirlər. Əsas məqsəd isə vətəndaşların şəxsi və maliyyə məlumatlarını əldə etməkdir.

Belə hallarda ən vacib məsələ soyuqqanlı və diqqətli davranmaqdır. Unutmaq olmaz ki, heç bir rəsmi qurum və ya bank telefon vasitəsilə vətəndaşlardan bank kartının tam nömrəsini, PIN kodunu və ya SMS vasitəsilə göndərilən təsdiq kodlarını tələb etmir. Əgər sizə belə bir zəng daxil olarsa, məlumat verməkdən qəti şəkildə imtina etmək lazımdır.

Dələduzlar bəzən vətəndaşları tələsdirməyə çalışır və guya kartdan pul çıxarıldığını bildirirlər. Bu kimi hallarda təşvişə düşmək əvəzinə, zəngi dayandırmaq və bankın rəsmi nömrəsi ilə əlaqə saxlamaq daha doğru addımdır. Şübhəli nömrələrdən gələn zənglərə və mesajlara ehtiyatla yanaşmaq tövsiyə olunur.



Eyni zamanda naməlum şəxslərə şəxsi məlumatların ötürülməsi ciddi risk yarada bilər. Telefon danışığı zamanı ünvan, şəxsiyyət vəsiqəsi məlumatları və bank rekvizitlərinin paylaşılması təhlükəlidir. Vətəndaşlar belə hallarla qarşılaşdıqda dərhal polis orqanlarına məlumat verməlidirlər. Unutmayaq ki, diqqətlilik və məlumatlılıq dələduzluq hallarının qarşısının alınmasında ən təsirli vasitələrdən biridir. Hər bir vətəndaş öz məlumatlarının təhlükəsizliyinə məsuliyyətlə yanaşmalı və şübhəli zənglərə qarşı ayıq-sayıq olmalıdır.

*A.Tahirova*

# Post-patrul xidmətinin Qədim Romadan başlayan tarixi

## “Vigiles” dəstələri şəhərdə asayişi qoruyurdu



Qədim Roma dünyanın ən böyük və ən inkişaf etmiş şəhərlərindən biri hesab olunurdu. Əhalinin sayının sürətlə artması, ticarətin və sənətkarlığın genişlənməsi şəhər həyatını daha da canlandırırdı. Lakin böyük şəhərlərdə olduğu kimi Romada da ictimai asayişin qorunması və təhlükəsizliyin təmin edilməsinə ehtiyac var idi.

Roma küçələrində gecə vaxtı nəzarətin zəifləməsi müxtəlif qayda pozuntularına və cinayət hadisələrinə şərait yarada bilərdi. Bundan əlavə, o dövrdə tikililərin əksəriyyətinin taxtadan hazırlanması səbəbindən yanğın hadisələri də tez-tez baş verirdi. Bu hallar şəhərdə xüsusi təhlükəsizlik sisteminin yaradılmasını zəruri edirdi. Məhz bu səbəbdən Roma İmperatoru Avqust tərəfindən ictimai asayişi qorumaq və şəhərin təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi patrul dəstələri yaradılmışdı. Bu dəstələr “Vigiles” (latın sözü olub mənası “keşikçi” deməkdir) adı ilə tanınırdı.

### “Vigiles” dəstələri necə yarandı?

Tarixi mənbələrə görə, “Vigiles” sistemi eramızın I əsrində formalaşdırılmış və Roma şəhərinin təhlükəsizliyinin qorunmasında mühüm rol oynamışdır. Bu patrul dəstələri şəhərin müxtəlif hissələrində xidmət apararaq gecə vaxtı küçələrdə nəzarəti təmin edirdilər.

Bu dəstənin üzvləri xüsusi qaydalar əsasında təşkil olunmuş qruplarda fəaliyyət göstərirdilər. Onlar şəhərin müxtəlif məhəllələrində patrul xidmətini həyata keçirir, şübhəli halları araşdırır və qayda pozuntularının qarşısını almağa çalışırdılar. Gecə vaxtı küçələrdə gəzərək təhlükəsizliyi təmin edən bu patrulların Roma cəmiyyətində böyük nüfuzu var idi. Bu dəstələr yalnız cinayətlərin qarşısının alınması ilə məşğul olmur, eyni zamanda şəhərdə baş verə biləcək digər təhlükəli hallara da müdaxilə edirdilər. Bu baxımdan “Vigiles” Roma tarixində ilk təşkilatlanmış təhlükəsizlik strukturlarından biri hesab olunur.

### Patrul xidmətinin əsas vəzifələri

Roma küçələrində patrul xidməti aparan “Vigiles” şübhəli şəxsləri nəzarətdə saxlayır, ictimai qaydaların pozulmasının qarşısını almağa çalışırdı.

Bu dəstələrin digər mühüm vəzifəsi isə yanğın hadisələrinin qarşısının alınması və baş vermiş yanğınların söndürülməsi idi. Qədim Romada yanğınlar tez-tez baş verdiyi üçün belə hallara operativ reaksiya vermək xüsusi əhəmiyyət kəsb edirdi. “Vigiles” üzvləri yanğın zamanı ilkin müdaxilə edir, alovun yayılmasının qarşısını almağa çalışır və əhalinin təhlükəsizliyini təmin edirdilər. Eyni zamanda onlar gecə saatlarında küçələrdə qaydanın qorunmasına nəzarət edir, şəhər sakinlərinin təhlükəsizliyinin təmin olunmasına kömək göstərirdilər. Bu fəaliyyət sayəsində Roma şəhərində müəyyən səviyyədə sabitlik və təhlükəsizlik təmin olunurdu.

“Vigiles” dəstələri hüquq-mühafizə sisteminin tarixində mühüm rol oynamış, sonrakı dövrlərdə formalaşan polis xidmətlərinin inkişafına müəyyən mənada təsir göstərmişdir. Tarixi təcrübə göstərir ki, təhlükəsizliyin qorunması üçün yaradılmış belə sistemlər cəmiyyətin sabitliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

*Aytən Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik